Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 130 (1498) 14 iyul 2017-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Həzin duyğulu rəssamın rənglər dünyası

**(əvvəli ötən sayımızda)**

**- Bəs, Azərbaycan Rəssamlar İttifaqının Vacihə Səmədova adına sərgi salonunda keçirilən sərginiz insanlarda hansı təəssüratı yaratdı?**

- Bakı şəhərində keçirilən sərgimdə 80-ə yaxın əsərim nümayiş olundu. Burada qədim Naxçıvanın ecazkar təbiət gözəlliklərini rənglərin dili ilə çatdırmağa çalışmışdım. Nuh yurdu Naxçıvan adından da məlumdur ki, peyğəmbər ocağı müqəddəs məkandır. Burada Naxçıvanın adının tarixi kökünə fikir versək Nuhun adı ilə bağlı olduğunu görə bilərik. Seçdiyim əsərlərdə Naxçıvan abidələri, təbiət abidələri öndə dururdu. Natürmortlarda xalqımızın qədim məişət əşyaları, xalq etnoqrafiyasına bağlılıq, tarixi keçmişimizə bələdçilik oz həllini tapmışdır. Kompazisiyalarımdan ən çox bəyəniləni "Qədim Nuhçıxan" əsəri oldu. Sərginin afişasında, hazırladığımız bukletlərdə də bu öz əksini tapmışdı.

**-Həbibə xanım, prezident İlham Əliyevin 2016-cı il iyunun 2-də imzaladığı sərəncama əsasən Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub. Naxçıvanın tarixini, mədəniyyətini, adət-ənənələrini, mənəvi dəyərlərini özündə əks etdirən çoxlu sənət əsərləriniz var. Bu mövzuya yenidən qayıtmaq, yaratdığınız tabloları təkmilləşdirmək istəyiniz varmı?**

Hər bir millət, hər bir xalq yaşadığı həyatı əks etdirən sənət əsərlərinə istinad edir. Naxçıvanın həm də qədim sivilizasiyanın beşiyi olduğunu nəzərə alsaq, çox tarixi bir prosesin şahidi olacağımıza əminlik yaranır. Sözsüz ki, mən də türk-islam mədəniyyət nümunələrinin, dini abidələrin tanıdılması, təbliği ilə bağlı bir sıra işlər görürəm. Çalışıram ki, şəhərimizə gələn qonaqların özləri üçün alacaqları xatirə əşyaları içərisində mənim də rəsm əsərlərim olsun. Bunun üçün Naxçıvan torpağının qədimliklə müasirliyinin vəhdətini göstərməyə çalışıram. Görkəmli rəssam B.Kəngərlinin "Nuh Türbəsi" mənzərəsi əsasında, eləcə də tədqiqatlar nəticəsində Nuh peyğəmbərin Naxçıvanda olması təsdiqlənib. Həmin türbə dövlətimiz tərəfindən bərpa edilib. Əsərlərimdə abidələrin müasir görkəmini, əzəmətini təsvir edirəm.



**-Sənətsevərlərin sərgi ilə bağlı yekdil qənaəti nədən ibarət oldu?**

- Deyilən fikirlərə, rəylərə əsasən maraqla qarşılandı. Tamaşaçılar qeyd edirdilər ki, rənglər daha könülaçandır, mövzular aktualdır. Rəsmlər tək bir süjet xətti istiqamətində deyil, çoxplanlı şəkildə işlənib. Mənzərələr, portretlər, natürmortlar fəlsəfi mənanı özündə əks etdirib. İsti və soyuq rənglərin harmoniyasının olduğunu da qeyd etdilər. "Naxçıvan etüdləri" daha çox diqqəti cəlb edirdi. Naxçıvan təbiətinin insanda qəribə hiss yaratdığını vurğulayanlar da az deyildi. Kompazisiyalardan ən çox diqqət çəkən "Qədim Nuhçıxan", "Üçüncü Dünyamız", "İnsan Və Zaman" idi.

Bəli, rəssam heç vaxt arxayınlaşmamalıdır. Bu sənət ürəyimizin yanğısı, təxəyyülümüzün məhsulu ilə qolbudaq atır. Həqiqi istedad zəhmətlə yoğrulanda möcüzələr yaranır, sənət möcüzəsi.

**- Pedaqoji fəaliyyətiniz işinizə mane olmur ki?**

- Xeyr, Naxçıvan Dövlət Universitetinin Təsviri İncəsənət kafedrasında müəllim kimi fəaliyyət göstərirəm. Tələbələrin gələcəkdə ixtisaslı kadr kimi formalaşmasında üzərimə düşən məsuliyyəti dərindən dərk edirəm. Bizə yaradılan şərait müqabilində borcumuzdur ki, tələbələrə ixtisasın sirlərini dərindən öyrədək.

**- Sizə yaradıcılıq uğurları arzulayıram.**

- Çox sağolun.

Bəli, Həbibə xanımın hər bir əsərində rəssamın xəyal dünyası, dərin fəlsəfi mənabaxı özünü göstərir. Rəssam fırça ilə öz daxili aləminin baxışlarını təbliğ edir.

Həbibə Allahverdiyevanın yaradıcılığında milli çalarlar, ənənəvi məzmunlu mövzular üstünlük təşkil edir. Bu səbəbdəndir ki, Azərbaycan Respublikası Rəssamlar İttifaqının Sədri, xalq rəssamı Fərhad Xəlilov onun yaradıcılığına böyük qiymət verib: "Çox şadam ki, Naxçıvan rəssamları öz əsərlərini artıq Bakıda nümayiş etdirirlər. Onların tez-tez fərdi sərgiləri açılır. Deyə bilərəm ki, Həbibə xanım işgüzar və çox maraqlı bir xanımdır. Onun əsərlərində 2 istiqaməti görürəm. Əsərlərində fəlsəfi məna hökm sürür. Tam əminəm ki, o sənətin sirlərini dərindən öyrənəcək, nailiyyətlər əldə edəcək. Ona bu yolda yardımçı olmağa hazırıq".

Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev isə deyib: "Həbibə xanım rəssamların orta nəslinə mənsub sənətkardır. Realizm üslubunda yerinə yetirdiyi müxtəlif janrlı əsərlər daha çoxdur. Çox vaxt realizmi bəyənməyən, ona ağız büzən adamlar bilsin ki, realizm yaradıcı potensialı inkişaf etdirmək üçün çox gözəl üslubdur. Həbibə xanımın sərgidə nümayiş olunan əsərlərində biz bunu gördük, realizmin bədii istiqamətləri çox genişdir. Ulu öndərimiz Heydər Əliyevin belə bir kəlamı var: "Naxçıvan təbiətinə kişi gözəlliyi xasdır." Onun əsərlərində də kişi gözəlliyinin özünəməxsus ifadəsi vardır. Düşünürəm ki, sənətşünaslar bu sərgidən razı qalacaqlar".



Doğrudan da, Həbibə Allahverdiyeva sənət aləmində imzasını təsdiqləyən sənətkardır. Rənglər dünyası ilə baş-başa qalmaqdan zövq alan və rahatlıq tapan rəssam təbiətlə təmasın ona verdiyi ruhu kətana köçürür. Təbiət onun yaradıcılığı üçün geniş məkandır. O, dünyaya öz prizmasından yanaşır. Elə obrazların oxşarlığı da məhz bunun nəticəsidir. Onun əsərləri ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

**Təsviri sənət sahəsində yaradıcılıq dünyası ilə fərqlənən rəssamın sənət manerası ona həyatı özünəməxsus şəkildə görməyə yardım edir. Onun əsərlərində romantik aləm sanki dil açıb danışır. Həbibə Allahverdiyevaya bundan sonrakı fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq. Ürəyinin hərarəti ilə yaratdığı əsərlər ona əbədi yaşamaq hüququ qazandırsın.**

***Adilə Səfərova***
***Əməkdar mədəniyyət işçisi***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ